# Manaf Məlikov





Qüvvə hər şeyi, ağıl isə qüvvəni sındırar. Elmin və savadın gücü heç bir şeylə ölçülə bilməz. Elmin sahib olduğu qüvvədən və bu qüvvənin nuru ilə işıqlanan cəmiyyətdən yəqin ki, xəbəriniz var. Zənnimcə, uşaqlar böyüdükcə bu nur daha da gurlaşır. Ətrafda dərsə marağı olan, oxumağı sevən və dərslərinə məsuliyyətlə yanaşan şagirdləri gördükdə sözünü etdiyim “nur”un daha parlaq işıq saçacağına olan ümidlərim daha da böyüyür.

Belə çalışqan, ətrafına nur saçan şagirdlərdən biridə Məlikov Manafdır.Məlikov Manaf Fuad oğlu 2004- cü ildə Şirvanda anadan olmuşdur. Manaf 2011-ci idə 71 saylı orta məktəbin 1-ci sinfinə qədəm qoymuşdur. Hal-hazırda həmin məktəbin 8-ci sinif şagirdidir. Manaf dərslərinə çox böyük məsuliyyətlə yanaşır və məktəbin əlaçı şagirdlərindən biridir.Manafın həm də musiqiyə böyük marağı var və qarmon çalır. Hətta bu sahədə diplomu var. Boş vaxtlarını kitab oxuyaraq və qarmon çalaraq keçirir.

Manafın ailəsi 3 nəfərdən ibarətdir. Atası- Məlikov Fuad ustadır, anası- Məlikova Minusə xanım isə evdar xanımdır.

Biz də öz növbəmizdə Manafın tədris illəri ərzində belə çalışqan olacağına inanır və ona “tələbə” adını qazanmasını arzu edirik.





# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT RƏMZLƏRİ

## DÖVLƏT BAYRAĞI



Azərbaycanda üçrəngli dövlət bayrağı ilk dəfə 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə qəbul edilmişdir. 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraq qadağan edilmiş və sovet bayrağı ilə əvəz olunmuşdur.

Sonralar Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırılmışdır. 1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Azərbaycan Respublikasının dövlət suverenliyinin rəmzlərindən biri olan üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir. Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.



## DÖVLƏT GERBİ

Azərbaycanın dövlət gerbi haqqında Azərbaycan Xalq Cümhuriyyəti hökuməti 1920-ci il yanvarın 30-da müsabiqə elan etmiş və müsabiqədən keçəcək gerb nümunəsinin həmin ilin mayın 28-də qəbul ediləcəyi haqqında qərar çıxarmışdır. Lakin 1920-ci il aprel ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin süqut etməsi nəticəsində həmin gerb qəbul edilməmişdir. Sonralar - 1990-cı ildə Azərbaycan SSR Ali Soveti qarşısında Azərbaycanın Dövlət gerbinin hazırlanması üçün yeni müsabiqənin elan olunması haqqında vəsatət qaldırılmışdır. Müsabiqə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Sovetinin qərarı ilə elan olunmuşdur. 1991-1992-ci illərdə müsabiqəyə Dövlət gerbinin onlarla layihəsi təqdim olunmuşdur. Müzakirələr zamanı 1919-1920-ci illərdə hazırlanmış layihələrdən birinin qəbul edilməsi ilə bağlı təkliflər də səslənmişdir.

Azərbaycan Respublikasının Ali Soveti 1993-cü il yanvarın 19-da qəbul etdiyi Konstitusiya Qanunu ilə 1919-1920-ci illərdə hazırlanmış Dövlət gerbi layihələrindən birini müəyyən dəyişikliklərlə Azərbaycan Respublikasının Dövlət gerbi kimi təsdiq etmişdir. Dövlət gerbi haqqında Əsasnamə və ona əlavə edilmiş təsvir 1993-cü il aprelin 5-də təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Dövlət Gerbi Azərbaycan dövlətinin müstəqilliyinin rəmzidir. Dövlət gerbi palıd budaqlarından və sünbüllərdən ibarət qövsün üzərində yerləşən Şərq qalxanının təsvirindən ibarətdir. Qalxanın üstündə Azərbaycan Respublikasının Dövlət bayrağının rəngləri fonunda səkkizguşəli ulduz, ulduzun mərkəzində isə alov təsviri vardır.

Gerbin rəngli təsvirindən ulduz ağ, alov qırmızı, palıd budaqları yaşıl, sünbüllər sarı, qalxanın və ulduzun sağanaqları habelə qalxanın düymələri və palıd qozaları qızılı rəngdədir.

## DÖVLƏT HİMNİ

1920-ci il yanvarın 30-da Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası Cümhuriyyətin Milli Himninin hazırlanması haqqında qərar qəbul etdi və bu məqsədlə Xalq Maarif Nazirliyi tərəfindən müsabiqə elan edildi. Lakin 1920-ci il aprelin 28-də Xalq Cümhuriyyətinin süqutu Azərbaycanın Milli Himnini qəbul etməyə imkan vermədi. Azərbaycan Respublikasının ilk Dövlət Himni 1945-ci ildə Azərbaycan SSR Sovet İttifaqının tərkibində olarkən qəbul edilmişdir (sözləri S.Vurğun və S.Rüstəmin, musiqisi Ü.Hacıbəyovun) 1992-ci il mayın 27-də parlament ”Azərbaycan Respublikasının Dövlət Himni haqqında” Qanun qəbul etdi. Qanuna əsasən, 1919-cu ildə böyük bəstəkar Üzeyir Hacıbəyov və şair Əhməd Cavad tərəfindən tərtib edilmiş təntənəli ”Azərbaycan marşı” Azərbaycanın Dövlət Himni kimi təsdiq edildi.

Musiqisi: **Üzeyir Hacıbəyovun,**
Sözləri: **Əhməd Cavadındır.**

**Azərbaycan! Azərbaycan!**
**Ey qəhrəman övladın şanlı Vətəni!**
**Səndən ötrü can verməyə cümlə hazırız!**
**Səndən ötrü qan tökməyə cümlə qadiriz!**
**Üçrəngli bayrağınla məsud yaşa!**
**Minlərlə can qurban oldu,**
**Sinən hərbə meydan oldu!**
**Hüququndan keçən əsgər!**
**Hərə bir qəhrəman oldu!**
**Sən olasan gülüstan,**
**Sənə hər an can qurban!**
**Sənə min bir məhəbbət**
**Sinəmdə tutmuş məkan!**
**Namusunu hifz etməyə,**
**Bayrağını yüksəltməyə,**
**Cümlə - gənclər müştaqdır!**
**Şanlı Vətən! Şanlı Vətən!**
**Azərbaycan! Azərbaycan!**

## Ziyalılıq kütləvi ola bilməz. Alim, şair, bəstəkar, rəssam, yazıçı artıq bunlar fikri istedada malik olan nadir adamlardır

*Heydər Əlirza oğlu Əliyev*



**Zərifə Əziz qızı Əliyeva**

Azərbaycan SSR-nın əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki



**Heydər Əlirza oğlu Əliyev**

Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, Azərbaycan Respublikasının üçüncü Prezidenti ”Ulu öndər” və ”Azərbaycan xalqının ümummilli lideri” titullarının rəsmi daşıyıcısı.

***Mənalı ömür yaşamaq hər insanın taleyinə yazılmır. Elə insanlar var ki, onların ömür yolu gələcək nəsillərin həyatına işıq saçır, xalqa tükənməz bir xəzinə bəxş edir.***

Bu dünyaya insanlara nur paylamaq, xeyirxahlıq etmək üçün gəlmiş Zərifə xanım Əliyeva da belə seçilmiş insanlardan olmuşdur. O, günəş qədər parlaq ürək sahibi, yüksək mənəviyyat, daxili zənginlik simvolu idi. Qəlbini şam kimi əridib ondan xeyirxahlıq, işıq umanların yoluna nur çiləmək üçün yaradılmışdı Zərifə xanım Əliyeva.

Azərbaycan Respublikasının Əməkdar Elm Xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 1923-cü il aprelin 28-də Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

Zərifə xanım Əliyevanın fəxri adları, elmi titulları, mükafatları olduqca çoxdur. Bu adların hər biri qürur, iftixar mənbəyidir. Lakin bu adlar sırasında ən şərəflisi Ana adıdır. Qeyri-adi bir ana olan Zərifə xanımın övladlarına münasibəti də xüsusi idi. O, nə edirdisə böyük sevgi ilə edirdi. Onun sevgisinin gücü öz ailəsinin hüdudlarında daha çox duyulurdu.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri xiyabanda - atasının məzarə yanında dəfn olunmuşdur. Bütün ömrünü insanlara xidmət işinə sərf etmiş bir insanın bu gün aramızda olmamasına inanmaq çox çətindir. Fəqət, görkəmli alimin, xeyirxah insanın, qayğıkeş ananın adının qədirbilən xalqımızın yaddaşında əbədi həkk olunması bu gün hər bir azərbaycanlı üçün təsəlliverici məqamdır.

***Azərbaycan xalqının şanlı oğlu, qüdrətli dövlət xadimi, dahi siyasətçi Heydər Əliyevin 2016-cı il mayın 10-da anadan olmasının 94-cü ildönümü tamam olur.***

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq, tutduğu vəzifələrdən istefa vermişdir.

1990-cı ilin iyulunda Azərbaycana qayıdan Heydər Əliyev ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda yaşamış, həmin ildə də Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. O, 1991 - 1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Heydər Əliyev 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis qurultayında partiyanın sədri seçilmişdir. 1993-cü ilin may-iyununda ölkədə siyası böhranının son dərəcə kəskinləşməsi ilə əlaqədar o zamankı rəhbərlik Heydər Əliyevi Bakıya dəvət etmişdir. Heydər Əliyev 1993-cü il 15 iyunda Azərbaycan Ali Sovetinin sədri seçilmiş, iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini icra etməyə başlamışdır.

Heydər Əliyev bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş, öz fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Azərbaycan xalqı heç vaxt ondan dəstəyini əsirgəməmişdir. Azərbaycan xalqının ümummilli lideri, müdrik rəhbər və dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.



# Hacıyeva Yegana




Savadlı, təhsilli insanla ünsiyyət qurarkən hez yorulmursan. Əksinə onun söhbətindən bir rahatlıq, sakitlik duyursan. Müsahibindən bəzən heç oxumadığın, eşitmədiyin tarixi faktlar, gözəl kəlamlar eşidirsən. Bunlar insan ruhunu qidalandırır, rahatladır. Bilik insanı güclü edir. Çünki bilikli insan həm də ziyalı olur. Ona görə ki, belə insanlar yaşadığı cəmiyyətin bütün keyfıyyətlərini, mənsub olduğu millətin zəngin mənəvi dəyərlərini, tarixi şəxsiyyətlərini tanıyır, dilini, dinini təbliğ edir. Bu cür insanlar eyni zamanda yaşadığı müasir cəmiyyətin nail olduğu texnologiyanın, müasir avadanlıqların və onlarla davranış mədəniyyətinə də sahiblənirlər.

Hacıyeva Yeganə Səməndər qızı yanvar 10 oktyabr 2006-cı ildə Qax rayonunda dünyaya göz açmışdır. O, suraxanı rayonu 29 nömrəli tam orta məktəbin 1-ci sinifdə elm həyatına başlamışdır. Yeganə hal-hazırda həmin məktəbin 7-ci sinif şagirdidir. Yeganə sinifdə əlaçı və fəal şagirdlərdən biridir. O, rəqs etməyi çox sevir. Yeganə rəqs və şeir üzrə bir çox müsabiqələrdə iştirak etmişdir. O, rəqs üzrə 1-ci yer, şeir üzrə 1-ci yer tutmuş, və həmçinin Heydər Əliye fondunda rəqs üzrə çıxışları olmuşdur. Yeganə tədris üzrə keçirilən fənnlərdən fəal iştirak etmiş və bir çox fəxri fərmanları və diplomları vardır. Yeganə məktəbə gəldiyi ilk gündən müəllimlərin sevimlisinə çevrilmişdir. O, bütün müəllimlərini çox sevdiyin deyir. Ən çox sevdiyi fənn isə Tarix və Ədəbiyyat fənnidir. Yeganə 9 saylı musiqi məktəbinin 1-ci sinif şfgirdidir. Boş vaxtlarında dərslərində əlavə mahnı oxumağı, rəqs etməyi və bədii kitab oxumağı çox sevir. Valideynlərinin fəxri olan Yeganənin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Hacıyev Səməndər Eldar oğlu 8 dekabr 1978 ci ildə Qax rayonunda anadan olub. Yeganə atasını çox sevir. Səməndər bəy tikinti şirkətində fəaliyyət göstərir.

Anası Mirzəyeva Ziyafət Fərhad qızı 19 oktyabr 1978-ci ildə Zəngilan rayonunda anadan olub. Jurnalistika üzrə fəaliyyət göstərir.

Qardaşı Hacıyev Uğur Səməndər oğlu11 noyabr 2009-cu ildə Sumqayıt şəhərində anadan olub, məktəblidir, 3-cü sinif şagirdidir.

Yeganənin arzusu gələcəkdə jurnalistika olmaq istəyir. Biz də öz redaksiyamız adından Yeganəyə gələcək həyat yolunda bolbol uğurlar arzu edirik. Valideynlərinin, müəllimlərinin fəxri olmasını diləyirik. Yolun hər zaman açıq olsun!

# Həsənov Fuad



Bilik bir gücdür. Elm öyrənmək böyük bir zəhmətdir. J.J.Russo demişdir: “Döyüşdə silah lazım olduğu kimi, həyatda da bilik lazımdır.” Müasir elm və tərəqqi elə bir səviyyəyə gəlib çatmışdır ki, nə orta, nə də ali məktəblər insana onun həyatının axırına kimi bütün bilik və elmi verə bilmir. Məhz buna görə də hər bir insan daim axtarışda olmalı, yeniliklərlə tanış olub, yeni bilik əldə etməlidir.

Həsənov Fuad Bahadur oğlu 18 yanvar 2003-cü ildə Ağdam rayon Çəmənli kəndində dünyaya göz açmışdır. Fuad 2009-cu ildə Laçın rayonu 29 nömrəli tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. O, hal-hazırda həmin məktəbin 10-cu sinif şagirdidir. Fuad idmanla məşğul olmağı çox sevir. O, idman üzrə keçirilən yarışlarda cudo üzrə fəal iştirak etmiş və bir çox nailiyyətlər qazanmışdır. Fuad çox məsuliyyətli və çalışqan şagirdlərdən biridir. O, tədris ilində keçirilən bütün fənnlərdən yaxşı qiymətlər alır. Ən çox sevdiyi fiziki tərbiyə fənnidir. O, məktəbə gəldiyi ilk gündən müəllimlərin sevgisini qazanmağı bacarmışdır. Ən çox sevdiyi müəllim isə Yaşar müəllimdir. Fuad üstündə əziyyəti olan bütün müəllimlərinə minnətdarlığını bildirir. Onun arzusu gələcəkdə idmançı olmaqdır. Fuadın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Həsənov Bahadur Əyyub oğlu 1974-cü ildə Ağdam rayonu Çəmənli kəndində anadan olmuşdur. Fuad atasını çox sevdiyini bildirib.

Anası Həsənova Akifə İmamverdi qızı 1983-cü ildə Laçın rayon İmanlar kəndində anadan olmuşdur.

Bacısı Həsənova Leyla Bahadur qızı, tələbədir.

Biz də öz redaksiyamız adından Fuada gələcək həyatında bol-bol uğurlar arzu edirik. Yolun hər zaman açıq olsun!



# Zərifə Əziz qızı Əliyeva



**Azərbaycan Respublikasının əməkdar elm xadimi, tibb elmləri doktoru, Azərbaycan Elmlər Akademiyasının akademiki Zərifə Əziz qızı Əliyeva 28 aprel 1923-cü ildə Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.**

1942-ci ildə orta məktəbi bitirdiktən sonra o, Azərbaycan Dövlət Tibb İnstitutunun müalicə-profilaktika fakültəsinə daxil olmuş və 1947-ci ildə həmin institutu bitirmişdir.

Sonra o, Moskva şəhərində Mərkəzi həkimləri Təkmilləşdirmə İnstitutunda oftalmolgiya üzrə ixtisaslaşdırma kursu keçmişdir.

1950-ci ildə Zərifə xanım Əliyeva aspiranturaya daxil olmuş və 1953-cü ildə buranı bitirmişdir.

1957-ci ilə qədər Azərbaycan Elmi-Tədqiqat Oftalmologiya İnstitutunda elmi işçi, 1960-cı ildən 1967-ci ilə qədər böyük elmi işçi, 1967-ci ildən isə Ə.Əliyev adına Azərbaycan Həkimləri Təkmilləşdirmə İnstitutunda göz xəstəlikləri kafedrasının dosenti, professor, görmə orqanının peşə patologiyası laboratoriyasının müdiri, oftalmologiya kafedrasının müdiri (1982-1985) vəzifələrində çalışmışdır.

İllər boyu apardığı müşahidələrin, klinik tədqiqatların və təcrübələrin nəticələri Zərifə xanımın dünyada ən məşhur oftalmologiya mərkəzlərinin birində H.Helmqolts adına Moskva Göz Xəstəlikləri Elmi Tədqiqat İnstitutunda müdafiə etdiyi ”Azərbaycanın bir sıra kimya müəssisələri işçilərinin görmə orqanının vəziyyəti” adlı doktorluq dissertasiyasının əsasını təşkil etmişdir. 1977-ci ildə Zərifə xanım Əliyevaya tibb elmləri doktoru dərəcəsi verilmişdir.

Zərifə xanım Əliyevanın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların, o cümlədən ”Terapevtik oftalmologiya”, ”İridodiaqnostikanın əsasları” kimi nadir elmi əsərlərin müəlliflərindən biri, 12 monoqrafiya, dərslik və dərs vəsaitinin, 150-yə yaxın elmi işin, 1 ixtira və 12 səmərələşdirici təklifin müəllifidir.

Zərifə xanım Əliyeva yüksək ixtisaslı səhiyyə kadrların hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, ”Vestnik oftalmologiyi” (Moskva) jurnalı redaksiya heyətinin üzvü idi.

1981-cı ildə oftalmologiyanın inkişafına verdiyi böyük töhfəyə - görmə orqanının peşə patologiyası sahəsində apardığı elmi tədqiqatlara görə professor Z.Ə.Əliyeva oftalmologiya aləmində ən yüksək mükafata - SSRİ Tibb Elmləri Akademiyasının akademik M.İ. Averbax adına mükafatına layıq görülmüşdür. Geyd olunmalıdır ki, professor Z.Ə.Əliyeva həmin mükafata layiq görülən ilk qadın idi.

Elmi tədqiqatların yüksək səviyyəsi, onların sosial əhəmiyyəti, ictimai fəallığı, pedaqoji istedadı, çoxillik elmi-tədqiqat işlərində böyük xidmətlərini qiymətləndirərək, 1983-cü ildə Zərifə xanım Əliyevanı Azərbaycan SSR EA-nın akademiki seçdilər.

Zərifə xanım Əliyeva göstərdiyi xidmətlərinə görə orden və medallarla təltif olunmuşdu. Azərbaycanın əməkdar elm xadimi kimi yüksək ada layiq görülmüşdür.

1985-ci il aprel ayının 15-də Moskva şəhərində vəfat edən Zərifə xanım Əliyevanın cənazəsi 1994-cü ildə Moskvanın Novo-Deviçye qəbiristanlığından Bakıya gətirilərək, Fəxri Xiyabanda, atasının qəbri yanında dəfn olunmuşdur.

# Onun xalqı üçün gördüyü işlər danılmazdır və gözümüzün önündədir



***Heydər Əliyevin demokratik dəyəri qiymətləndirmək bacarığı, öz xalqına gələcəyi uğrunda düşüncə və baxışları hər kəsi düşündürməyə səsləyirdi və məhz bunun nəticəsidir ki, İlham Əliyevin apardığı siyasət bu ardıcıllığı özündə təsdiqləyir.***

Dövlətimizin mənafeyi uğrunda aparılan siyasi tədbirlər Heydər Əliyev ideyalarının layiqli davamçısı, gənclərimizin fəxri olan İlham Əliyevin timsalında daha işıqlı gələcək vəd edir. Öz xalqının mənafeyi uğrunda çalışan bir insan İlham Əliyev haqqında danışmaq və söz demək çətin və məsuliyyətli olsa da, onunla bağlı xoş hisslər heç vaxt məni tərk etməmişdir. Xalqın ləyaqətli oğlu İlham Əliyevdən danışarkən ilk növbədə, onun neft proqramını işlənib həyata keçirilməsindəki uğurlu fəaliyyəti ölkəmizdə idmanın hərtərəfli inkşiafı, xüsusilə də xarici siyasət məsələlərində əldə olunan böyük nailiyyət Avropa Şurasında Azərbaycanın ləyaqətlə təmsil olunması nəzərə çarpır. Bu isə Azərbaycanın xarici siyasətində aparıcı yer tutur. İlham Əliyevin hələ seçkiqabağı çıxışları. siyasətlə bağlı fikirləri, yenilik duyğusu hər bir azərbacanlını düşündürməyə bilməz. Bütün bu düşüncələr isə bir amala xidmət edir. Onun haqqında ürək sözlərini fəxr və qürurla söyləmyə sövq edir. Hamıya bəllidir ki, hakimiyyət sükanının səriştəli siyasətçi əlində olması Azərbaycanın inkişafı və çiçkələnməsi deməkdir.

Yalnız görkəmli ictimai xadiim Heydər Əliyev səviyyəsində olmağa qadir olanlar prezidentimizin davamlısı ola bilərlər. Bunun üçün Heydər Əliyevin siyasi məktəbini öyrənmək, onun fəaliyyət fenomeninin incəliklərini dərk edib zəngin təcrübəsindən bəhrələnmək lazımdır. Dünya şöhrətli Heydər Əliyevin oğlu İlham Əliyev isə əsl siyasət məktəbi keçmiş bir şəxsiyyətdir. O, atasından dövləti idarə etmək məsuliyyətini, beynəlxalq əlaqələri düzgün istiqamətləndirmək prinsiplərini siyasi şərtləri və siyasi imici yüksək qiymətləndirməyi çox düzgün mənimsəmişdir. Atanın fəaliyyəti oğula örnək oldu. Ata oğul üçün ideala çevrildi. Atadan oğula bir yol başladı. Bu, haqq yoludur.

Uzun əsrlərdən sonra Azərbaycan öz dövlətçiliyi uğurunda mücadiləyə başladı. Milli azadlıq hərakatı yolunda uğurlu addımlar atıldı. Xalq yaranmış vürsəti əldən vermədi. Şah İsmail Xətainin yaratdığı Azərbaycan dövlətinin 20-ci əsrin əvvəllərində (1918-20-ci illərdə) yenidən bərpasının davamına 21-ci əsrin astanasında yenidən başlandı. Bununla yeni dövrə keçidin bünövrəsi qoyuldu. Amma müstəqilliyinin qazanılması ağrısız-acısız ötüşmədi. Nəhəng dövlətlərin əlində tarix boyu alət olmuş Ermənistan ölkəmiz üçün ən güclü əngələ çevrildi. Təzəcə ayaq tutmaq istəyən müstəqil respublikamıza qarşı elan olunmamış müharibə başladı.

Keçmişimizi xatırlamaqla bu günümüzlə müqayisə etmək istədim. Bu gün xalqımız azad, demokratik şəraitdə yaşayır. Bunun səbəbkarı isə məhz İlham Əliyev cənablarıdır. İlham Əliyev ömrünü xalqa həsr edib. Biz hamımız onu sevir, onunla fəxr edirik, onun adı hamı üçün müqəddəsdir.



# Səlim Kazımov




Kazımov Səlim Əfqan oğlu 22 aprel 2010-cu ildə Bakı şəhərində anadan olmuşdur. O, 2016-ci ildə 51 saylı tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. Səlim hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. O, bütün dərsləri yaxşı oxuyur. Məktəbə gəldiyi ilk gündən müəllimlərin və şagirdlərin sevgisini qazanmağı bacarmışdır. Ən cox sevdiyi fənn Riyaziyyat və Azərbaycan dili fənnidir. Müəllimlərdən isə Fərzəliyeva Sevil müəllimənı xüsusi olaraq qeyd edib. Səlim sinifdə əlaçı və fəal şagirdlərdən biridir. O, dərslərindən əlavə boş vaxtlarında kitab oxumağı, riyaziyyatla məşğul olmağı çox sevir. Səlim balamızın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Kazımov Əfqan, sürücüdür. Səlim atasını çox sevdiyimi qeyd edib. Anası Kazımova Həmidə, evdar xanımdır. Qardaşı Kazımov Seymur, məktəblidir, 5-ci sinif şagirdidir.

Səlimin arzusu gələcəkdə polis olmaqdır. Biz də öz redaksiyamız adından Səlimə gələcək həyat yolunda bol-bol uğurlar arzu edirik. Yolun açıq olsun!

# Şükürlü Əli



Elm - təbiət və cəmiyyətin inkişaf qanunauyğunluqlarını və obyektiv aləmə təsiri üsullarını öyrənən (meydana çıxaran) biliklər sistemi və bu biliklərin ayrıca sahəsi. İnsan biliklərinin müəyyən bir sahəsi. Məsələn, elmlə məşğul olmaq, həyatını elmə sərf etmək, oxumaqla əldə edilən bilik, məlumat. Bəzən savad, məlumat mənasında. Elmilik - elmi olma, elmə əsaslanma, elmi mahiyyət daşıma. Məsələn, nəticələrin elmiliyi, sübatların elmili-yi. Elmli - təhsil gürmğş, təhsil almış, təhsilli, oxumuş, ziyalı; insanın əməli və nəzəri fəaliyyətinin spesifik sahəsi; ictimai şüur formalarından biri. Elmin cəmiyyətin məhsuldar qüvvələrinin inkişafına və ictimai həyatın müxtəlif sahələrinə təsirinin sosial nəticələri mühümdür. Elm həmzinin təbiət, cəmiyyət və təfəkkürün inkişaf qanunları haqqında biliklər sistemidir.

Şükürlü Əli Arif oğlu 14 yanvar 2012-ci ildə Bakı şəhərində anadan olub. Əli 2018-ci ildə Şuşa şəhəri 1 saylı tam orta məktəbin 1-ci sinifində təhsil almağa başladı. Əli sinifdə nümunəvi və fəal şagirdlərdən biridir. Onun ən çox sevdiyi fənn Riyaziyyat fənnidir. Əli məktəbdə keçirilən bilik yarışlarında fəal iştirak etdiyi üçün bir zpx mükafatlar əldə etmişdir. O, boş vaxtlarında rəsm çəkməyi çox sevir. Az yaşlı olmağına baxmayaraq çox məsuliyyətli şagirdlərdən biridir. Valideynlərinin fəxri olan Əli balamızın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Şükürlü Arif Vaqif oğlu. Əli atasını çox sevdiyini bildirir.

Anası Şükürlü Vüsalə Şəmsi qızı.

Bacısı Şükürlü Aliyə Arif qızı.

Əli balamızın arzusu gələcəkdə Polis olmaq arzusundadır.

Biz də Şükürlü Əliyə jurnalımız adından bol-bol uğur və müvəffəqiyyətlər arzu edir, istədiyi peşəyə yiyələnməsini diləyirik. Yolun hər zaman açıq olsun!



# Biz bütün varlığımızla İlham Əliyevə dəstək olmalıyıq



***Bu gün biz böyük fəxrlə qeyd edirik ki, ulu öndər, ümummilli lider Heydər Əliyevin timsalında xalqımızın və dövlətimizin şanlı tarixi yolu uğurla davam edir. Bu yolu Heydər Əliyev ideallarına daim sadiq qalan, vətənini, xalqını dərin məhəbbətlə sevən, bütün varlığı ilə xalqına bağlı olan Prezidentimiz İlham Əliyev cənabları uğurla, qətiyyətlə davam etdirir. İlham Əliyev kimi gözəl bir rəhbər bizə Allah-Təala tərəfindən bəxş olunub. Onun daxili və xarici siyasətdə uğurları öz bəhrələrini verməkdədir. Bu uğurlu siyasətin nəticəsidir ki, artıq bütün dünyada, o cümlədən, Avropada Azərbaycanın haqq səsi eşidilir.***

İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi daim xalq tərəfindən sevilir, bəyənilir və dəstəklənir. Azərbaycan dövləti iqtisadi cəhətdən möhkəmlənərək təkcə Cənubi Qafqazda deyil, bütövlükdə postsovet məkanında öncül yer tutaraq lider dövlətə çevrilmişdir. Biz inanırıq ki, Azərbaycan dövləti onu gözü götürməyən düşmənlərinə öz iqtisadi gücü ilə qalib gələcək. Odur ki, biz bütün varlığımızla, bütün qüvvəmizlə Prezidentimiz İlham Əliyevə möhkəm arxa-dayaq olmalıyıq. Xalqımızın və dövlətimizin inkişafı naminə həyata keçirilən bütün tədbirlərdə yaxından iştirak etməliyik.

İlham Əliyevin xalqın sosial həyat şəraitinin daha da yaxşılaşdırılması və regionların sosial inkişafı ilə əlaqədar verdiyi sərəncamlar qarşıda geniş perspektivlər açır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu vəzifəyə seçildiyi ilk gündən "güclü iqtisadiyyat-güclü dövlət" formuluna əməl edir.

Azad bazar iqtisadiyyatı şəraitində qeyri-neft sektorunun yüksəlişi, iqtisadiyyatın neftdən asılılıq dərəcəsinin azaldılması, yeni iş yerlərinin açılması, sosial xarakterli bir sıra problemlərin həlli, şübhəsiz, sahibkarlığın inkişafından keçir. Dünyada baş verən iqtisadi prosesləri dərindən bilən dövlət başçısı İlham Əliyev respublikanın sosial-iqtisadi tərəqqisində özəl sektorun, sahibkarların rolunu həmişə düzgün dəyərləndirir, hökumət strukturları ilə iş adamlarının sağlam əməkdaşlıq etməsini zəruri sayır.

Qısa müddətdə sahibkarların güzəştli kreditlərlə təmin olunması, onların fəaliyyətinə yersiz müdaxilələrin qarşısının alınması, özəl sektorda inkişafa mane olan süni problemlərin həlli istiqamətində bir sıra mühüm addımlar atılması cənab İlham Əliyevin bu sahəyə göstərdiyi diqqətin məntiqi nəticəsidir. Ölkə Prezidenti dəfələrlə vurğulamışdır ki, son illər uğurlu iqtisadi göstəricilərin əldə edilməsində özəl sektorun, milli sahibkarlar təbəqəsinin rolu kifayət qədər böyükdür. O, ayrı-ayrı çıxışlarında inhisarçılıq, sahibkarlara süni maneələrin yaradılması, hüquq-mühafizə orqanlarının iş adamlarının fəaliyyətinə müdaxiləsi hallarını pisləmiş, bu münasibət konkret qərarlarla müşayiət olunmuşdur. Antiinhisar fəaliyyətinin gücləndirilməsi, inflyasiyanın qarşısının alınması üçün tədbirlərin görülməsi, korrupsiyaya qarşı mübarizə üzrə Milli Stategiyanın təsdiqlənməsi, biznes subyektlərinin qeydiyyatı və lisenziya sisteminin sadələşdirilməsi, yerlərdə regional iqtisad və apellyasiya məhkəmələrinin yaradılması kimi tədbirlər də bunun əyani təcəssümüdür.

Ölkə başçısı cənab İlham Əliyev hələ 2003-cü il Prezident seçkiləri öncəsi çox ciddi təşəbbüslərlə çıxış etmişdi. İrəli sürülən bütün təşəbbüslər, verilən vədlər artıq tamamilə həyata keçirilmişdir. Bu bir daha onu göstərir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iqtisadi inkişaf sahəsində yeni iqtisadi təfəkkürü, yeni iqtisadi fəlsəfəni, yeni iqtisadi siyasəti reallaşdırmışdır. İrimiqyaslı və böyük maliyyə tutumlu "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın həyata keçirilməsi Azərbaycanın iqtisadi imkanlarının gündən-günə artmasının daha bir göstəricisidir. Dövlət Proqramının cənab İlham Əliyev tərəfindən qəbul edilməsi heç də təsadüfi deyildir. 1993-cü ildən başlayaraq Azərbaycanda həm sosial, həm iqtisadi, həm siyasi, həm də hüquqi inkişaf yeni mərhələyə qədəm qoymuşdu. Ulu öndərimiz Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu inkişaf onun ən layiqli davamçısı - Prezident İlham Əliyevin rəhbərliyi ilə daha da sürətlənmişdir. Bu da bir daha onu göstərir ki, iqtisadi sahədə proqnozlaşdırma və planlaşdırmanın tətbiq olunması çox mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda indiyədək 50-dən çox dövlət proqramı qəbul olunmuşdur. Hesab edirəm ki, ən iri miqyaslı, siyasi, iqtisadi və sosial əhəmiyyətinə görə vacib sənədlərdən biri "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı"dır. Bu proqramın təsiri uzunmüddətlidir, miqyası genişdir, əhəmiyyəti təkcə bu gün deyil, həm də gələcək üçün hesablanıb. Amma onu vurğulamaq vacibdir ki, Dövlət Proqramının reallaşmasında, uğurlu icrasında cənab İlham Əliyevin siyasi iradəsi, qətiyyəti mühüm rol oynayır. Əminik ki, qarşıdakı illərdə qazanılmış uğurlar yeni nailiyyətlərin əsasını təşkil edəcəkdir.

Hazırda Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq 2013-2020-ci illərdə regionların sosial-iqtisadi inkişafı ilə bağlı yeni Dövlət Proqramının həyta keçirilməsi üzərində iş gedir. Əminəm ki, bu proqramla da Azərbaycan özünün sosial-iqtisadi inkişafının keyfiyyətcə yeni bir mərhələsinə qədəm qoyacaq, abadlıq-quruculuq tədbirləri daha geniş vüsət alacaq, ölkəmizin regionda, dünyada nüfuzu daha da möhkəmlənəcəkdir.

# Şükürlü Aliyə



Elm obyektiv, sistemli və əsaslandırılmış biliklərin əldə edilməsinə, dəqiqləşdirilməsinə və yayılmasına yönəlmiş insan fəaliyyəti növüdür. Bu fəaliyyətin əsasını elmi faktların toplanması, onların daima yenilənməsi və sistemləşdirilməsi, tənqidi analizi və bu əsasda elmi biliklərin toplanması təşkil edir. Elm təkcə mğşahidə edilən təbiət və ictimai halları təsvir etmir, həm də onların əlaqələrini tapır və nəticəni müəyyən edə bilir.

Şğkğrlğ Aliyə Arif qızı 25 sentyabr 2010-cu ildə Bakı şəhərində anadan olub. O Şuşa rayonu 1 nümrəli tam orta məktəbin 3-cğ sinif şagirdidir. Aliyə az yaşlı olmağına baxmayaraq çox məsuliyyətli və çalışqan şagirddir. O, bütün fənnləri sevərək dərk edir. Aliyə boş vaxtlarında kitab oxumağı çox sevir. Məktəbə gəldiyi ilk gündən müəllimlərin və sinif yoldaşlarının sevgisini qazanmağı bacarmışdır. Onun gözəl şəkil çəkmə qabiliyyəti də vardır. Valideynlərinin fəxri olan Aliyə balamızın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Şükürlü Arif Vaqif oğlu.

Anası Şükürlü Vüsalə Şəmsi qızı.

Qardaşı Şükürlü Əli.

Biz də öz redaksiyamız adından Aliyəyə gələcək həyatında bol-bol uğurlar arzu edirik. Səsin daima ucalardan gəlsin!



# DAHİ SİYASƏTÇİNİN DAHİ DAVAMÇISI

***Azərbaycan illərdir ki, müstəqillik əldə edib. Nəzərə alsaq ki, bu müstəqilliyin ilk iki ili yalnız səriştəsiz insanların hakimiyyət savaşına ”həsr olunub” və eyni zamanda Ermənistanın təcavüzkar siyasəti ilə üz-üzə qalmışıq, bu gün dövlətimizin əldə etdiyi uğurlar bəlkə də eyni şərtlər daxilində başqalarının on illiklərdə qət etdiyi yoldan çoxdur.***



Azərbaycan dövləti 20 illik cavan bir tarixə malik olmasına baxmayaraq, dünyanın inkişaf tempi ilə ayaqlaşa bilib və müasir standartların, müsbət beynəlxalq təcrübələrin ölkəmizə gəlməsinə nail olub. Bu gün Azərbaycanın qarşısında yeni əsrin çağırışları dayanır. Ölkədə vətəndaş cəmiyyəti qurulub və dövlətimiz demokratik prinsiplərə sədaqət nümayiş etdirir. Azərbaycan ən müasir texnologiyalara qucaq açır, müasir tələbləri addımlarında ehtiva edir. Siyasi proseslərin müsbət istiqamətdə inkişafı Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşmasına, xalqla iqtidar arasında birliyin möhkəmlənməsinə şərait yaradır. Azərbaycanın daha da güclü dövlətə çevirməsi üçün Prezident İlham Əliyev bu cür tezis irəli sürüb: ”Azərbaycan ”qara qızıl”ı insan kapitalına çevirir”.

Azərbaycanda aparılan iqtisadi islahatlar artıq səmərəsini verir. ölkəmizdə ümumi daxili məhsul 96 faiz artıb. Uğurla həyata keçirilən sosial islahatlar isə cəmiyyətin inkişafında, xalqın rifah səviyyəsinin artmasında öz müsbət rolunu oynayır. Prezident İlham Əliyev parlamentin yaranmasının 90 illik yubileyində Azərbaycanda vətəndaş cəmiyyətinin inkişafında sosialyönümlü islahatların rolunu müsbət dəyərləndirib. Yaşayış səviyyəsi ildən-ilə artan Azərbaycan xalqının rifah halı yaxşılaşır və bunun göstəricisi olan yoxsulluğun səviyyəsi kəskin şəkildə aşağı düşür: ”Son illərdə yoxsulluğun səviyyəsinin 49 faizdən 16 faizə düşməsi onu göstərir ki, bizim qəbul edilmiş bütün qərarlar, siyasi və iqtisadi islahatlar, uğurlu neft siyasətimiz, ilk növbədə, Azərbaycan xalqının rifah halının yaxşılaşmasına yönəldilibdir. Sürətlə inkişaf edən bəzi cəmiyyətlərə xas olan təbəqələşmə prosesi Azərbaycan cəmiyyətində getmir. Əksinə, Azərbaycanda çox güclü orta sinif yaranır, sahibkarlar sinfi yaranır və bilirsiniz ki, bu sahəyə çox böyük diqqət göstərilir. Bu gün ölkə iqtisadiyyatının 80 faizdən yuxarı hissəsi özəl sektorda formalaşır. Baxmayaraq ki, Azərbaycan iqtisadiyyatının əsas hissəsini enerji resursları təşkil edir və enerji resursları dövlət nəzarətindədir, özəl sektor sürətlə inkişaf edir”.

Xalqımızın böyük oğlu, Müstəqil Azərbaycan Respublikasının Prezidenti, müdrik və uzaqgörən insan İlham Heydər oğlu Əliyevi doğum günü münasibətiylə təbrik edirik. İlham Əliyev Azərbaycan xalqına bütün həyatı və fəaliyyəti ilə sədaqətini sübut etmişdir. Əsas qəhrəmanı xalq olan bu tarixin hər səhifəsi gənclərimiz üçün örnəkdir.Milli dövlətçiliyimizin inkişafı hüquqi və demokratik cəmiyyət yaradılması, vətəndaş həmrəyiliyinin bərqərar olması istiqamətində göstərilən səylər ilk növbədə dövlətimizin başçısına minnətdar olmalıyıq.İnanırıq ki, Azərbaycan xalqının sınanmış lideri ,öz ölkəsinin çiçəklənməsi,bütün mövcud əngəllərin aradan qaldırılması səylərini bundan sonrada əsirgəməyəcək.

Dövlətimizin möhkəmləndirilməsi, müstəqilliyimizin, suverenliyimizin qorunması ərazi bütövlüyünün təmin olunması, xoşbəxt firavan, Azərbaycsan naminə hər kəs əlindən gələni əsirgəməməli, gələcək nəsillərə estafeti layiqincə çatdırmalıdırlar.bunun üçün isə hər bir azərbaycanlı İlham Əliyevi dəstəkləməlidir.

# Soltanlı Rafiq



Bilik - insanın özü və onu əhatə edən aləm və bu aləmin amilləri haqqında məlumat toplusu. Bilik mühəndisliyi baxımından bilik formallaşdırılmış informasiyadır. Bilik praktiki fəaliyyət və peşəkar təcrübə nəticəsində alınan predmet sahəsinin qanunauyğunluqları olub (prinsipləri, əlaqələri, qanunları), həmin sahədə mütəxəssislərə məsələ qoymağa və həll etməyə imkan verir.

Soltanlı Rafiq Şahin oğlu 8 sentyabr 2009-cü ildə dünyaya göz açıb. Rafiq 2015-ci ildə Oktay Babayev adına tam orta məktəbin 3-cü sinifində oxuyur. Rafiq təhsil aldığı məktəbdə çalışqanlığı, məsuliyyəti və nizam-intizamı ilə seçilən şagirdlərdəndir. O, öz mehriban rəfdarı ilə sinif yoldaşlarının və müəllimlərinin sevgisini qazanmışdır. Ən çox sevdiyi fənn Riyaziyyat fənndir. Amma o, ümumilikdə bütün dərslərə məsuliyyətlə yanaşır. Məktəbə gəldiyi ilk gündən müəllimlərinin sevimlisinə çevrilmişdir. Rafiq ona dərs deyən bütün fənn müəllimlərini çox sevdiyini və onları çox sevdiyini vurğulayır. Bu sırada Ş. Alimə müəllliməni xüsusi olaraq qeyd edib. Rafiqin gələcəkdə arzusu Hüquqşünas olmaqdır. O, dərslərində qazandığı uğura görə yoldaşlarından fərqlənir. Boş vaxtlarında futbol oynamağı, idmanla məşğul olmağı çox sevir. Rafiq balamızın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Soltanov Şahin Ekologiya təbii sərvətlər nazirliyinin əməkdaşı kimi fəaliyyət göstərir.

Anası Soltanova Sənubər işləmir, evdar xanımdır.

Qardaşı Soltanlı Tofiq məktəblidir, 5-ci sinif şagirdidir.

Müəllimlərin sevgisini qazanan Rafiqə uğurlarının davamlı olmasını və ali məktəbə daxil olmaqla müəllimlərinin adını daha da ucaltmasını diləyirik.



# Soltanlı Tofiq



Bilik xəzinədir. Elm, bilik o qədər həzz mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilər.

Öyrənilməsi lazım olanlar həddindən artıq çox, insan həyatı isə olduqca qısadır. Biliksiz həyat həyat deyil. O adam məharətlidir ki, çox əziyyət çəkmədən elmə yiyələnir. Çox şeyi başqalarından öyrənir, hamının müdrikliyindən və qabiliyyətindən bəhrələnir. Yaşayaraq əldə edilən bilik daş üzərinə həkk edilmiş yazıdır.

Soltanlı Tofiq Şahin oğlu 10 mart 2008-ci ildə Biləsuvar rayonu Əsgərabad kəndində anadan olub. 2013-cü ildə Oktay Babayev adına tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. Hal-hazırda elə həmin məktəbin 5-ci sinif şagirdidir. Tofiq çox çalışqan və məsuliyyətli şagirddir. O, tədris ilində keçdiyi fənnlər üzrə əla qiymətlər aldığı üçün əlaçı şagird kimi mükafatlandırılmış və şəkli şərəf lovhəsində vurulmuşdur. Onun ən çox sevdiyi fənn Riyaziyyat fənnidir. Dərslərində göstərdiyi fəallığı ilə sinifyoldaşlarından fərqlənir. Tofiq müəllimlərin sevimlisinə çevrilmişdir. Həmişə öyrəndiklərinə görə üstündə əziyyəti olan müəllimlərinə minnətdarlığını bildirir. O, müəllimlərin hörmətini və rəğbətini daima qoruyur. Ən çox sevdiyi müəllim Mirnicat müəllimidir. Tofiq boş vaxtlarında kitab oxumağı və futbol oynamağı çox sevir. Gələcəkdə arzusu hüquqşunas olmaqdır. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası Soltanov Şahin Ekologiya təbii sərvətlər nazirliyində fəaliiyət göstərir.

Anası Soltanova Sənubər evdar xanımdır.

Qardaşı Soltanlı Rafiq

Məktəbə qədəm qoyduğu ilk gündən indiyədək oxumağa həvəsi olan və çalışqanlığı ilə seçilən Tofiqin orta məktəbi bitirənədək belə çalışqan olacağına və gələcəkdə tələbə adını qazanmasını arzu edirik.

# Həziyev Əvəz



Bilik xəzinədir. Elm, bilik o qədər həzz mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabı, necə qocaldığını belə unutdura bilər. Öyrənilməsi lazım olanlar həddindən artıq çox, insan həyatı isə olduqca qısadır. Biliksiz həyat həyat deyil. O adam məharətlidir ki, zox əziyyət zəkmədən elmə yiyələnir. Çox şeyi başqalarından öyrənir, hamının müdrikliyindən və qabiliyyətindən bəhrələnir. Yaşayaraq əldə edilən bilik daş ğzərinə həkk edilmiş yazıdır.

Həziyev Əvəz Qalib oğlu 17 mart 2010-cu ildə Bakı şəhərində anadan olmuşdur. Əvəz 2016-cı ildə Səbail rayonu 51 nəmrəli tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. O, hal-hazırda elə həmin məktəbin 3-cğ sinif şagirdidir. Məktəbə gəldiyi ilk gündən müəllimlərin sevimlisinə zevrilən Əvəz balamız çox ağıllı və məsuliyyətli şagirdlərdən biridir. o, dərslərini çox yaxşı oxuyur. Əvəz sinifdə əlaçı və nümunəvi şagirdlərdən biridir. Ən zox sevdiyi fənn Azərbaycan dili və Riyaziyyat fənnidir. O, müəllimlırin rəğbətini qazanmağı bacarmışdır. Ən zox sevdiyi mğəllimə isə Kərimova Süsən müəllimədir. Əvəz boş vaxtlarında idmanla məşğul olmağı çox sevir. Onun gələcəkdə arzusu Holding rəhbəri olmaqdır. Valideynlərinin fəxri olan Əvəz balamızın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Həziyev Qalib Əvəz oğlu hərbizidir.

Anası Həziyeva Kənarə, evdar xanımdır.

Bacısı Həziyeva Sevil, məktəblidir, 3-cğ sinif şagirdidir.

Biz də öz redaksiyamız adından Əvəz balamıza gələcək həyatında uğurlar arzu edirik. Hər zaman valideynlərinin, müəllimlərinin fəxri olarsan!



# İSMAYILOV CAVİDAN





Məncə, hər kəs var-dövlət, daş-qaş əvəzinə bilik yığarsa daha zəngin və güclü olar. Çünki ən qiymətli daş-qaşı salıb itirərsən, var-dövlət tükənər, lakin biliyi heç kəs səndən ala bilməz.

Həqiqətən də, bilik qaranlıq yollarda insana bəxş edən bir çıraqdır. Biz gərək elmi biliklərimizi daha dərindən mənimsəyək ki, öz peşəmizin güclü mütəxəssisinə çevrilək, çünki respublikamızın rifahı bizim əlimizdədir. Cavidan da gələcəkdə öz peşəsinin mütəxəssisi olmaq istəyir.

İsmayılov Cavidan Malik oğlu 27 avqust 2010- cu ildə Bakı şəhərində anadan olmuşdur. 2016- cı ildə ilk dəfə məktəbə yollanan Cavidan indi 3-ci sinfində oxuyur. O, deyir ki, riyaziyyat və fiziki tərbiyə fənlərinə daha çox marağı var. Böyüyəndə həkim olmaq istəyən Cavidan arada rəsim çəkir və qardaşı Muradla oyun oynuyur.

4 nəfərdən ibarət olan ailələri haqqında da qısa məlumat aldıq. O, bildirdi ki, atası İsmayılov Malik, fəhlə işləyir. Anası İsmayılova Peykam isə evdar qadındır. Özündən yaşca kiçik qardaşı Murad da məktəblidir.

Müsahibəmiz zamanı suallarımıza çox həvəslə cavab verən Cavidan balaya kollektivimiz adindan müvəfəqiyyətlər arzulayırıq. Ümidvarıq ki, Cavidan gələcəyin ən savadlı həlimi olacaq.

# Hacıyev Uğur



Əsil uğurun nə olduğunu bizə Müqəddəs Kitab göstərir. Ancaq Müqəddəs Kitab sehrli nağılların aşıladığı "xəyalların bir göz qırpımında gerçəkləşər, təki sən istə" fikrini dəstəkləmir. İnsanlar böyüdükcə başa düşürlər ki, həyat nağıllardakı kimi deyil və çox vaxt məyus olurlar. Digər tərəfdən, biz düşünə bilərik ki, uğur təkcə barmaqla saya biləcəyimiz bəxtəvərlərə nəsib olur.

Hacıyev Uğur Səməndər oğlu 11 noyabr 2009-cu ildə Sumqayıt şəhərində anadan olmuşdur. Uğur 2016-cı ildə suraxanı 29 saylı tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. O, hal-hazırda 29 saylı Laçın rayon məktəbinin 3-cü sinif şagirdidir. Uğur az yaşlı olmağına baxmayaraq çox məsuliyyətli və çalışqan şagirdlərdən biridir. Onun gözəl rəsm çəkmə qabiliyyəti vardır. Uğur ona dərs deyən müəllimlərin rəğbətini qazanmağı bacarmışdır. Ən çox sevdiyi müəllimə keçmiş müəllimesi Tahirə müəllimədir. Uğur boş vaxtlarında kitab oxuyur, rəsm çəkir və maşınla oynamağı çox sevir. Uğur balamızın ailəsi 4 nəfərdən ibarətdir.

Atası Atası Hacıyev Səməndər Eldar oğlu 8 dekabr 1978 ci ildə Qax rayonunda anadan olub. Səməndər bəy tikinti şirkətində fəaliyyət göstərir.

Anası Mirzəyeva Ziyafət Fərhad qızı 19 oktyabr 1978-ci ildə Zəngilan rayonunda anadan olub. Jurnalistika üzrə fəaliyyət göstərir.

Bacısı Hacıyeva Yeganə Səməndər qızı 1 oktyabr 2006-cı ildə Qax rayonunda anadan olub, məktəblidir, 7-ci sinif şagirdidir.

Uğur gələcəkdə rəssam olmaq arzusundadır. Biz də öz jurnalımız adından Uğura həyat yolunda müvəffəqiyyətlər arzu edir və tələbə adını qazanmağını diləyirik. Səsin daima ucalardan gəlsin!



# Şıxızada Məryəm



İnsan, əslində, elmsizdir, ancaq Allahın lütfü sayəsində elm əldə edir. İnsana hər mərhələdə elm verilmişdir. Və elm qapıları onun üzünə taybatay açılmışdır. Elmi inkişaf, əslində, Allahın istədiyi zaman hiss etdirmədən insana elm verməsidir. Bu səbəbdən də hər bir elm sahibi verilən elmin əsl mənbəyini bilməli, Allahı öyüb Ona yönəlməli, biliyindən Allahı xoşnud olduğu şəkildə və yerlərdə istifadə etməlidir. Belə bir elm Allahın köməyi və lütfü ilə insanı Rəbbindən uzaqlaşdırmaz, ona Rəbbini unutdurmaz.

Şıxızadə Məryəm İlham qızı 8 yanvar 2010-cu ildə Yevlax şəhərində dünyaya göz açmışdır. O, 2016-cı ildə Kəlbəcər rayonu 19 saylı tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. Məryəm hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. Məryəm sinifdə ən fəal və bacarıqlı şagirdlərdən biridir. O, rəqs etməyi çox sevdiyini qeyd edib. Rəqs üzrə tədbirlərdə iştirak etmiş və bir çox mükafatlar qazanmışdır. Məryəmin ən çox sevdiyi fənn Azərbaycan dili və İngilis dili fənnidir. Məktəbə gəldiyi ilk gündən müəllimlərin sevgisini qazanmağı bacarmışdır. Məryəm xüsusi olaraq Xatirə müəlliməni qeyd edib və onları çox sevdiyini bildirib. Məryəm boş vaxtlarında kitab oxumağı, şəkil çəkməyi çox sevir. Məryəmin arzusu gələcəkdə savadlı müəllimə olmaqdır. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası Şıxıyev İlham Miryusif oğlu 1979-cu ildə anadan olub.

Anası Şıxıyeva Sahibə Ərzulla qızı 1980-cı ildə anadan olub.

Qardaşı Şıxlı Miryusif İlham oğlu 2007-ci ildə anadan olub.

Biz də öz redaksiyamız adından Məryəmə bol-bol uğurlar arzu edir və istədiyi müəllimlik peşəsinə yiyələnməsini diləyirik. Yolun hər zaman açıq olsun!

# Cəbrayıl Zəkiyev





Elmin mənbəyi evimizdən, bağçadan və məktəbdən başlanır. Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Bu işdə bilikli, dğnyagürğşlğ, milli dəyərlərimizi ifadə edən müasir texnikaya, onun nailiyyətlərinə yiyələnmiş vətənpərvər, fədakar müəllimlərimiz böyük rol oynayır. İndi dünya ölkələrinə inteqrasiyası vacib olduğu, intellekt savaşı getdiyi zamandır. Torpaqlarımızın işğaldan azad edilməsi millətimizin azad, firavan yaşaması üçün bütün bilik və bacarıqlara yiyələnən vətəndaşlarımıza böyük ehtiyac vardır. Çünki elmi biliklərə malik bir ölkənin gücü, qüdrəti böyük olar.

Cəbrayıl Zəkiyev Hikmət oğlu 3 fevral 2009-cu ildə Bakı şəhərində dünyaya göz açmışdır. O, 2015-ci ildə 51 nömrəli tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. Cəbrayıl hal-hazırda elə həmin məktəbin 4-cü sinif şagirdidir. Cəbrayıl sinifdə fəal və əlaçı şagirdlərdən biridir. O, gimnastika ilə məşğul olmağı çox sevir. Cəbrayıl tədris ilində keçirilən fənnlərdən əla qiymətlər alır. Onun ən çox sevdiyi fənn Riyaziyyat fənnidir. Cəbrayıl məktəbə gəldiyi ilk gündən müəllimlərin sevgisini qazanmağı bacarmışdır. Ən çox sevdiyi müəllimə isə Zülfiyyə müəllimə,Təranə müəllimə və Əli müəllimdir. Cəbrayılın ən böyük arzusu memar olmaqdır. Valideynlərinin fəxri olan Cəbrayılın ailəsi 3 nəfərdən ibarətdir.

Atası Zəkiyev Hikmət Ağakərim oğlu, mühasibdir. Cəbrayıl atasını çox sevdiyini bildirib.

Anası Zəkiyeva Yeganə Tacəddin qızı, uşaq bağçasında nəzarətçidir.

Zəkiyev CəbrayılA gələcək həyat yolunda bol-bol uğurlar arzu edir, tələbə adını qazanmağı diləyirik. Yolun hər zaman açıq olsun!



# Şıxlı Miryusif





**Elm hüdudsuz bir okeandır; mən və bəzi dostlarım bu okeandan bir neçə damlanı içmək fürsətini əldə verməkdir.**
***İsaak Nyuton.***

Bəli, təhsil bizim gələcəyimizdir, ölkəmizi dünyaya tanıtmaq üçün bilik, savaddır. Müasir dünyada hər bir ölkənin gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə ölçülür. Təhsilin inkişafı hər bir ölkədə inkişaf konsepsiyasının mühüm tərkib hissəsidir.

Həyatın axarı , dünyada gəliş-gedişi göstərir ki, adamlar müxtəlif cür müdrikləşirlər. Çoxları altmış-yetmişi keçib topladığı həyat təcrübəsi və saç-saqqalının ağlığı sayırlar. Ancaq elə adamlar da var ki, onlar yaşın, saç-saqqalın gətirəcəyi səlahiyyəti gözləmədən ömrünün çox erkən çağlarından müdriklik statusu qazanır, bu nurlu mərtəbəyə öz ləyaqət və davranışları ilə xeyli öncədən yüksələ bilər. Bu gənclərimizdən biridə Miryusif Şıxlıdır.

Miryusif Şıxlı İlham oğlu 28 noyabr 2007-ci ildə Yevlax şəhərində anadan olub. 2013-cü ildə 19 saylı Kəlbəcər məktəbinin 1-ci sinifinə qədəm qoyub. Hal-hazırda isə elə həmin məktəbin 5-ci sinif şagirdidir. Məktəbə daxil olduğu gündən öz fəallığı, çalışqanlığı ilə seçilən şagirdlərdən biri olmuşdur. Tədris edilən bütün fənnlərin özünəməxsus əhəmiyyətini nəzərə alaraq onların hər birinə diqqət ayıran Şıxlı Miryusif Riyaziyyat və İnformatika fənlərini çox sevir. İdmanla məşğul olub, sağlamlığının qeydinə qalan Şıxlı idmanın karate növü ilə daha çox məşğul olur. Onun bu sahədə uğur və nailiyyətləri də vardır. Karate üzrə keçirilən yarışda sertifikatla mükafatlandırılmışdır. Şıxlının gözəl şeir yazmaq qabiliyyətidə vardır. Boş vaxtlarında şeir yazmağı və şəkil çəkməyi çox sevir. O, gələcəkdə polis olmaq arzusundadır. Ailəsi 4 nəfərdən ibarətdir.Atası- Şıxıyev İlham Miryusif oğlu. 1979-cu ildə anadan olub. Anası- Şıxıyeva Sahibə Ərzulla qızı. 1980-cı ildə anadan olub.Bacısı- Şıxızadə Məryəm İlham qızı. 2010-cu ildə anadan olub.Bizdə öz jurnalımız adından Şıxlı Miryusifə müvəffəqiyyətlər arzu edirik. Səsin ucalardan gəlsin!

### Zaman vaxtı

**Yallı gedir adamlar**
**Minikləri atdır-at,**
**Daşı-daşa vuraraq**
**Ocaq qurdular onlar.**
**İşləri nə zülümmüş**
**İndiki vaxtlara bax.**

# Təhməzov İsa



Bilik - insanın özü və onu əhatə edən aləm və bu aləmin amilləri haqqında məlumat toplusu. Bilik mühəndisliyi baxımından bilik formallaşdırılmış informasiyadır. Bilik praktiki fəaliyyət və peşəkar təcrübə nəticəsində alınan predmet sahəsinin qanunauyğunluqları olub (prinsipləri, əlaqələri, qanunları), həmin sahədə mütəxəssislərə məsələ qoymağa və həll etməyə imkan verir.

Təhməzov İsa İlqar oğlu 12 may 2010-cu ildə Bakı şəhərində dünyaya göz açmışdır. İsa 2016-cı ildə Səbail rayonu 51 nömrəli tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. O, hal-hazırda elə həmin məktəbin 3-cü sinif şagirdidir. İsa sinifdə ən qabaqcıl və fəal şagirdlərdən biridir. Onun ən çox sevdiyi fənn Riyaziyyat və Azərbaycan dili fənnidir. İsa məktəbə gəldiyi ilk gündən müəllimlərin rəğbətini qazanmağı bacarmışdır. O, üstündə əziyyəti olan bütün müəllimlərinə minnətdarlığını bildirir. Xüsusilə də Fərzəliyeva Sevil müəlliməni xüsusi olaraq qeyd edib. O, boş vaxtlarında kitab oxumağı çox sevir. İsa balamızın arzusu gələcəkdə polis olmaqdır. Ailəsi 4 nəfərdən ibarətdir.

Atası Təhməzov İlqar, maqazin müdürüdür. İsa atasını çox sevir.

Anası Təhməzova Sevda, evdar xanımdır.

Qardaşı Təhməzov Emil, məktəblidir.

Biz də öz jurnalımız adından İsaya gələcək həyat yolunda bol-bol uğurlar arzu edir, gələcəkdə istədiyi peşəyə yiyələnməsini diləyirik!



# İlkin Abbasov



Bilikli insan hərtərəfli olduğu üçün hər hansı bir çətin vəziyyətdən çox asanlıqla çıxa bilir. Belə insanlar ziyalılığın göstəricisi kimi güclü ünsiyyət bacarığına da yiyələnmiş olur. Belə ki, dili, ünsiyyəti güclü olan insan malik olduğu bilik və bacarığını daha rahat, başa düşüləcək tərzdə ifadə etmək qabiliyyətindədir. Budur ziyalılıq.

Abbasov İlkin Ramil oğlu 20 iyul 2009-cu ildə Bakı şəhərində dünyaya göz açmışdır. O, 2015-ci ildə 51 nömrəli tam orta məktəbin 1-ci sinifində təhsil almağa başlamışdır. İlkin hal-hazırda həmin məktəbin 4-cü sinif şagirdidir. İlkin tədris ilində keçirilən fənnlərdən fəal iştirak edir. Ən çox sevdiyi fənn Azərbaycan dili və Riyaziyyat fənnidir. O, müəllimlərin və şagirdlərin sevgisini qazanmağı bacarmışdır. Ən çox sevdiyi müəllimə Zülfiyyə müəllimə və Təranə müəllimədir. İlkin boş vaxtlarında kitab oxumağı çox sevir. O, bütün fənnlərdən əla qiymətlər alır. İlkinin arzusu gələcəkdə polis olmaqdır. Valideynlərinin fəxri olan İlkinin ailəsi 5 nəfərdən ibarətdir.

Atası Abbasov Ramil Şükür oğlu 20 iyul 1984-cü ildə İmişli rayonu Çaxırlı kəndində anadan olmuşdur. O, D.İ.N. serjantdır.

Anası Abbasova Aliyə Etibar qızı 27 oktyabr 1983-cü ildə Lerik rayonunda anadan olub. Evdar xanımdır. 2 bacısı var.

Biz də öz jurnalımız adından İlkinə bol-bol uğurlar arzu edir, valideynlərin və müəllimlərin fəxri olmasini arzu edirik. Yolun açıq olsun!

# Cəbrayılzadə Aysu



**O adam ki, bilir və biliyi ilə başqalarını heyran edir, o, alimdir, ona ehtiram edin. O adam ki, bilir və biliyinə güvənmir, o, özündən xəbərsizdir, onu tənqid edin. O adam ki, bilmir və öyrənməyə cəhd edir, o, zəhməkeşdir, ona kömək edin. O adam ki, bilmir və öyrənmək də istəmir, o ağılsızdır, ondan uzaq olun.**

***N. Tusi***

Cəbrayılzadə Aysu Tofiq qızı 12 avqust 2006-cı ildə Bakı şəhəri Binəqədi şəhərində dünyaya göz açıb. Aysu 2011-ci ildə 18 saylı tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. Hal-hazırda elə həmin məktəbin 7-ci sinif şagirdidir. Aysu ağıllı və məsuliyyətli şagirddir. Ən çox sevdiyi fənn Kimya, Fizika, Biologiya və Tarix fənnidir. Aysu müəllimlərin və şagirdlərin sevgisini qazanmağı bacarmışdır. Ən çox sevdiyi müəllimə Gülsurə müəllimə, Gülşən müəllimə, Pərvanə müəllimə və Lalə müəllimədir. Aysu sinifdə ən qabaqcıl və əlaçı şagirdlərdən biridir. O, tədris ilində keçirilən fənnlərdən fəal iştirak etdiyi üçün bir çox mükafatlar əldə etmişdir. Aysu boş vaxtlarında bədii kitab oxumağı çox sevir. Onun arzusu gələcəkdə Tibb Universitetinin tələbəsi olmaqdır. Aysunun ailəsi 4 nəfərdən ibarətdir.

Atası Tofiq Əmikişi oğlu 1978-ci ildə anadan olub, pərdə yerində fəaliyyət göstərir.

Anası Cəbrayılzadə Tünzalə Həmzə qızı 1982-ci ildə anadan olub.

Qardaşı Cəbrayıl Sabir, məktəblidir, 9-cu sinif şagirdidir.

Cəbrayılzadə Aysuya gələcək həyatında bol-bol uğurlar arzu edirik. Valideynlərinin, müəllimlərinin fəxri olmasını diləyirik.



# Abdullayev Əli



Bir elm öyrənmək istədikdə sən
Çalış ki, hər şeyi kamil biləsən
Kamil bir palançı olsa da insan

Məktəb - xalqın mənəvi beşiyidir. Məktəbdə tək yazıb-oxumağı, hesablamağı və müxtəlif elmlərin sirlərini öyrətmirlər. Məktəbdə, həmçinin yaşamağı öyrədirlər. Dövlət məktəblərə nə qədər çox qayğı göstərirsə, onun gələcəyi bir o qədər də parlaq olacaqdır. Şagirdlər sadəcə bir toplaşmış uşaq toplaşması deyil, onlar orqanik qanunlarla yaşayan və inkişaf prosesini keçən uşaq icmasını təmsil edirlər. Məktəbdə Vətənin çoxəsrlik mədəniyyəti yaşayır.

Abdullayev Əli 22 may 2010-cu ildə dünyaya göz açmışdır. Əli 2017-ci ildə 51 saylı tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. O, hal-hazırda elə həmin məktəbin 2-ci sinif şagirdidir. Əli az yaşlı olmağına baxmayaraq çox çalışqan və məsuliyyətli şagirdlərdən biridir. O, bütün fənnlərini dərk edir. Ən çox sevdiyi fənn Azərbaycan dili, Musiqi və İngilis dili fənnidir. Məktəbə gəldiyi ilk gündən müəllimlərin və şagirdlərin sevimlisinə çevrilmişdir. Müəllimlərdən isə Nailə müəlliməni xüsusi olaraq qeyd edib. O, dərslərindən əlavə idmanla məşğul olmağı xoşlayır. Gələcəkdə savadlı həkim olmaq arzusundadır. Əlinin ailəsi 5 nəfərdən ibarətdir.

Atası Abdullayev Ümüd Mehdi oğlu satıcıdır, anası Abdullayeva Şəkilə Tahir qızı evdar xanımdır, 1 bacısı və 1 qardaşı var.

Biz də öz redaksiyamız adından Əliyə uğurlar arzu edirik. Yolun hər zaman açıq olsun!

# İbrahimov İbrahim




Əxlaqi və ya dini biliyin öyrədilməsində aydın danışmaq çox əhəmiyyətlidir. Bəzi insanlar  özlərini çox bilikli göstərmək üçün üstüörtülü və anlaşılmaz üslubda danışır. Bu cür danışmaq mahiyyətcə yanlış olduğu kimi, məsələlərin anlama səviyyəsinə uyğun çatdırılması metoduna da ziddir. Həzrəti Əli (radiyallahu anh): "İnsanlara başa düşdüyü şeylərdən bəhs edin. Hər halda Allah və Rəsulunun təkzib edilməsini istəməzsiniz!" - deyərək, xüsusilə, dini biliyin insanlara çatdırılmasında aydın və sadə üslub seçilməsinin əhəmiyyətini vurğulamışdır. İbn Məsud (radiyallahu anh) da: "Bir topluma dərk etmədikləri şeylərdən danışsanız, bu, bəziləri üçün fitnə-fəsad olar".

İbrahimov İbrahim Samit oğlu 2 iyul 2009-cu ildə Bakı şəhərində dünyaya göz açmışdır. O, 2016-cı ildə Laçın rayonu 29 nömrəli tam orta məktəbin 1-ci sinifinə qədəm qoymuşdur. İbrahim hal-hazırda həmin məktəbin 3-cü sinif şagirdidir. İbrahim məsuliyyətli və çalışqan şagirdlərdən biridir. O, idmanla məşğul olmağı çox sevir. İbrahimin idman üzrə bir çox nailiyyətləri vardır. O, tədris ilində keçirilən fənnlərdə fəal iştirak etmişdir. Ən çox sevdiyi fənn Azərbaycan dili fənnidir. Məktəbə gəldiyi ilk gündən müəllimlərin sevgisini qazanmağı bacarmışdır. Ən çox sevdiyi müəllimə isə İlahə müəllimədir. İbrahim boş vaxtlarında rəsm çəkməyi kitab oxumağı çox sevir. Valideynlərinin fəxri olan İbrahimin ailəsi 6 nəfərdən ibarətdir.

Atası Vaqifov Samit, sürücüdür. İbrahim atasını çox sevdiyini bildirib.

Anası Əsədova Xanım, evdar xanımdır.

3 qardaşı var.

İbrahimin arzusu gələcəkdə məşhur futbolçu olmaqdır. Valideynlərinin fəxri olan İbrahimin arzusu gələcəkdə istədiyi peşəyə sahib olmaqdır. Biz də öz jurnalımız adından İbrahimə həyatda bol-bol uğurlar arzu edirik.



# Sevil Həziyeva



Həziyeva Sevil Qalib qızı 30 dekabr 2008-ci ildə anadan olmuşdur. Sevil 2015-ci ildə 51 nömrəli tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. O, hal-hazırda elə həmin məktəbin 4-cü sinif şagirdidir. Sevil çox çalışqan və məsuliyyətli şagirddir. O, tədris ilində keçirilən fənnlərdən fəal iştirak etdiyi üçün bir çox mükafatlar əldə etmişdir. Ən çox sevdiyi fənn Azərbaycan dili fənnidir. Məktəbə gəldiyi ilk gündən müəllimlərin və şagirdlərin sevimlisinə çevrilmişdir. O, bütün müəllimlərini çox sevdiyini qeyd edib. Sevil boş vaxtlarında kitab oxumağı çox sevir. Onun ən böyük arzusu valideynlərinə, müəllimlərinə layiqli övlad olmaqdır. Sevil üstündə əziyyəti olan bütün müəllimlərinə minnətdarlığını bildirir. Valideynlərinin fəxri olan Sevilin ailəsi 4 nəfərdən ibarətdir.

Atası Həziyev Qalib, hərbiçidir. Sevil atasını çox sevdiyini qeyd edib.

Anası Həziyeva Kənarə, evdar xanımdır.

Qardaşı Həziyev Əvəz, məktəblidir, 3-cü sinif şagirdidir.

Ən böyük arzusu həkim olmaq olan Sevil balamıza həyat yolunda uğurlar arzu edir, müvəffəqiyyətlərinin bol olmasını diləyirik. Arzu edirik ki, hər zaman valideynlərinin fəxri olasan!

# İlahə Xəlilova




Bilikli insan hərtərəfli olduğu üçün hər hansı bir çətin vəziyyətdən çox asanlıqla çıxa bilir. Belə insanlar ziyalılığın göstəricisi kimi güclü ünsiyyət bacarığına da yiyələnmiş olur. Belə ki, dili, ünsiyyəti güclü olan insan malik olduğu bilik və bacarığını daha rahat, başa düşüləcək tərzdə ifadə etmək qabiliyyətindədir. Budur ziyalılıq.

Elmin mənbəyi evimizdən, bağçadan və məktəbdən başlanır. Elm öyrənmək böyük zəhmət, qabiliyyət və zaman tələb edir. Bu işdə bilikli, dünyagörüşlü, milli dəyərlərimizi ifadə edən müasir texnikaya, onun nailiyyətlərinə yiyələnmiş vətənpərvər, fədakar müəllimlərimiz böyük rol oynayır.

İndi dünya ölkələrinə inteqrasiyası vacib olduğu, intellekt savaşı getdiyi zamandır.

Xəlilova İlahə Adil qızı 9 iyul 2010-cu ildə Bakı şəhərində anadan olmuşdur. İlahə 2016-cı ildə 29 saylı tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. Hal-hazırda İlahə həmin məktəbin 3-cü sinif şagirdidir. İlahə ağıllı və savadlı şagirdlərdən biridir. Onun gözəl şeir yazma qabiliyyəti vardır. Şeir üzrə yarışlarda bir çox uğur əldə etmişdir. İlahənin ən çox sevdiyi fənn Azərbaycan dili fənnidir. O, bütün müəllimlərini çox sevdiyini deyir. Xüsusi olaraq İlahə müəllimənin adını qeyd edib. İlahə üstündə əziyyəti olan bütün müəllimlərinə minnətdarlığını bildirir. Boş vaxtlarında kitab oxuyur, qayda yazır. Valideynlərinin fəxri olan İlahə balamızın ailəsi 5 nəfərdən ibarətdir.

Atası satıcıdır, anası evdar xanımdır, 1 bacısı və qardaşı var.

İlahənin arzusu gələcəkdə savadlı müəllim olmaqdır.

Biz də öz jurnalımız adından İlahəni istədiyi müəllimlik peşəsinə yiyələnməsini arzu edirik. Səsin daima ucalardan gəlsin!



# Şirəliyev Misirxan







**Biliyin, elmin insan həyatında tutduğu yerin məna və əhəmiyyəti haqqında hələ XII əsrin dahi şairi N. Gəncəvi yazırdı:**

**Qüvvət elmdədir, başqa cür hez kəs**
**Heç kəsə üstünlük eyləyə bilməz.**

Biz elmi-texniki tərəqqinin çox vüsət alıb tüğyan etdiyi bir əsrdə yaşayırıq. Bu belə bir əsrdir ki, cəmiyyətimizin onun iqtisadi, mədəni, mənəvi inkişafı elm və biliklə xarakterizə olunur. Təhsil və bilik insan həyatında aparıcı rol oynayan ən vacib amillərdəndir. Belə ki, bilik insanın güclü, qüdrətli, müdrik bir şəxsiyyət kimi yetişməsində bir vasitədir. Elm, təhsil eyni zamanda dünya və aləmi, onun əsrarəngiz çalarlarını dərk edib duymaq üçün bir vasitədir. Belə ki, bizi əhatə edən aləm elmin, təhsilin və müasir texnikanın uğurlu nailiyyətlərinə əsaslanır.

Şirəliyev Misirxan Pərviz oğlu 24 fevral 2009-cu ildə anadan olmuşdur. O, 2015-ci ildə 51 saylı tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. Misirxan hal-hazırda həmin məktəbin 4-cü sinif şagirdidir. O, idmanla məşğul olmağı çox sevir. İdman üzrə yarışlarda Respublika üzrə 4 ədəd qızıl medal qazanmış və Bakı üzrə 2 yer, Gürcüstan üzrə isə 1 yer tutmuşdur. O, idmandan əlavə dərslərində də fəal iştirak etmişdir. Ən çox sevdiyi fənn Azərbaycan dili və Riyaziyyat fənnidir. Məktəbə gəldiyi ilk gündən müəllimlərin rəğbətini qazanmağı bacarmışdır. O, bütün müəllimlərini çox sevir xüsusilədə Səkinə müəlliməni qeyd edib. Misirxan boş vaxtlarında idmanla məşğul olmağı çox sevir. Misirxan balamızın ailəsi 5 nəfərdən ibarətdir.

Atası Şirəliyev Pərviz Səfər oğlu 25 mart 1979-cu ildə Bakı şəhərində dünyaya göz açmışdır.

Anası Şirəliyev Gülşən Sabir qızı 17 oktyabr 1982-ci ildə Bakı şəhərində anadan olub.

Baçıları Şirəliyeva İlahə 7-ci sinif, Şirəliyeva Dinarə isə 6-cı sinif şagirdləridir.

Misirxanın arzusu gələcəkdə kinboks olmaqdır. Biz də öz redaksiyamız adından Misirxana uğurlar diləyir və gələcəkdə bir çox uğurlara yiyələnməsini arzu edirik.

# SADIXOV NİZAMİ





Bilik xəzinədir. Elm, bilik o qədər həzz mənbəyidir ki, o insana hər şeyi, hətta fiziki iztirabi, necə qocaldığını belə unutdura bilər.

Öyrənilməsi lazım olanlar həddindən artıq çox, insan həyatı isə olduqca qısadır. Biliksiz həyat, həyat deyil. O adam məharətlidir ki, çox əziyyət çəkmədən elmə yiyələnir. Çox şeyi başqalarından öyrənir, hamının müdrikliyindən və qabiliyyətindən bəhrələnir. Yaşayaraq əldə edilən bilik daş üzərinə həkk edilmiş yazıdır.

Sadıxov Nizami Seymur oğlu 19 oktyabr 2009-cu ildə Bakı şəhərində dünyaya gəlmişdir. 2016-cı ildə 1-ci sinifdə oxuyan Nizami, indi Səbail rayonundakı 51 saylı tam orta məktəbin III b sinif şagirdidir. Böyüyəndə polis olmaq istəyən Nizami idmanlada məşğul olur.

Bizə göstərdiyi diplomlar, Fəxri Fərmanlardan bəlli oldu ki, Nizami balamız çox bacarıqlı şagirddir. İdmanda və təhsildə aldığı diplom və medalların sayı hesabı yoxdur.

Xatırlayaq ki, Nizami balamız dərslərinə də fəal yanaşır. Deməkolar ki, Nizami boş oturmur. Daim dərsləri ilə məşğul olan balaca qəhrəmanımız vaxtını riyaziyyat testləri ilə məşğul olmaqla keçirdir.

4 nəfərdən ibarət olan bu ailədə məqsədlər gələcəkdə yüksək nailiyyətlər əldə etməkdir.

Atası Sadıxov Seymur sürücüdür. Anası Sadıxova Gülnar isə evdar xanımdır. Nizaminin bacısı Aytac da məktəblidir.

Bizdə "Təhsil yenilikləri" jurnalı adından Nizami balaya dərslərində uğurlar diləyir, gələcəkdə böyük nailiyyətlər arzulayırıq.



# Əhmədov Mehdi



Hər şeydən öncə kitabı bilik qazanmaq üçün oxuyurlar, kitabı həm də müxtəlif ideyalara sahib olmaq, dünyagörüşünü zənginləşdirmək üçün də oxuyurlar və bütün bunlar əslində sizin həyat tərzinizə təsirsiz ötüşmür.

Kitab insana motivasiya verir, ruhlandırır, daha müsbət nəticələr əldə etməyə kömək edir. Kitablar bilmədiyimiz dünyaları bizə açır. ağlının yeni tərəflərini sənə açır. Əvvəl heç vaxt diqqət etmədiyin bacarıqlarını ortaya çıxarır.

Əhmədov Mehdi Orxan oğlu 12 noyabr 2012-ci ildə Bakı şəhərində anadan olub. Mehdi 2018-ci ildə 297 nömrəli tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. Mehdi çox məsuliyyətli və nümunəvi şagirddir. O, bütün fənnləri sevərək oxuyur. Ən çox sevdiyi müəllimə Pərvin müəllimə, Cəmilə müəllimə, Nailə müəllimə və Aişə müəllimədir. Mehdi məktəbdə keçirilən sınaq imtahanlarından ilk yerləri qazanmış və bir çox mükafatlar əldə etmişdir. Mehdi dərslərindən əlavə boş vaxtlarında idmanla məşğuldur, rəsm çəkməyi çox sevir. Bunlardan əlavə Mehdi professional şəkildə rəqslə də məşğul olur. Mehdinin arzusu gələcəkdə polis olmaqdır. Ailəsi 5 nəfərdən ibarətdir.

Atası Əhmədov Orxan 3 iyun 1987-ci ildə anadan olub, biznes üzrə fəaliyyət göstərir.

Anası Əhmədova Elnarə 25 sentyabr 1989-cu ildə anadan olub, evdar xanımdır.

1bacısı var 4 yaşında.

Biz də öz redaksiyamız adından Mehdiyə gələcək həyatında bolbol uğurlar və müvəffəqiyyətlər arzu edirik. Yolun açıq olsun!

# ABDULLAYEV ZAUR





Hələ XII əsrdə dahi şairimiz Nizami Gəncəvi elmin insan həyatındakı əhəmiyyətini, onun yaradıcı rolunu düzgün qiymətləndirmiş, öz əsərlərində bir sıra elmi məsələlərə toxunmuşdur. Şairin fikrincə, adamlar elmin gücü ilə qələbə çalıb müvəffəqiyyət qazana bilərlər.

Zaur Abdullayev Camal oğlu 14 iyun 2008-ci ildə Şəki şəhərinin Şirinbulaq kəndində doğulub. 2015- ci ildə məktəbə yollanan Zaur hal-hazırda 51 saylı tam orta məktəbin sinif şagirdidir. Zaur ən çox Riyaziyyat və Həyat bilgisi fənlərinə maraq göstərir. O, bütün müəllimələrinə hörmət bəsləsə də, ən çox sevdiyi müəlliməsi Adilədir.

İdmana meyl edən Zaur cudo ilə məşğul olur. O, Respublikamızda cudo üzrə yarışlarda 1- ci yerə çıxmış və medalla yanaşı, diplomla da təltif olunmuşdur. Çalışır ki, gələcəkdə dünya səviyyəsində yarışlara qatılıb, Vətəninə uğurlar gətirsin. Zauru sevənlər inanirlar ki, o, gələcəyin güclü idmançısı olaraq hələ çox uğurlar qazanacaq.

Zaurgilin ailəsi 5 nəfərdən ibarətdir. Atası Abdullayev Camal restoranda işləyir. Anası Abdullayeva Aynurə evdar xanımdır.

Yaşca özündən böyük olan bacıları qardaşlarını cox sevir, onunla fəxr edirlər. Böyük bacısı Abdullayeva Samirə 9-cu, Abdullayeva Aygün isə 6- cı sinifdə oxuyur.

Zaura dərslərində və idmanda daha başarılı olmağı arzulayırıq. Əminik ki, Zaur böyüyəndə həm savadlı kadır, həm də güclü idmançı olub Vətənini dünyada tanıtdıracaq. Uğurların bol olsun, Zaur!





# Süleymanova Salatın



Məktəb ilkin, əsas və tam orta təhsil üçün tədris ocağıdır. Azərbaycan dilində məktəb həm də orta ixtisas və ali təhsilə də aid edilir. Müasir cəmiyyətdə məktəb uşaqların təhsil almaq hüquqlarını təmin etməkdə əsas rol oynayır. O həm də uşaqların təlim və tərbiyəsi ilə məşğul olur. Məktəblərdə təhsil və tərbiyə cəmiyyətin iqtisadi və mədəni inkişafından asılıdır. Məktəblərdə mövcud olan problemlər islahatlarla həll olunur.Məktəbdə nizam-intizam,qayda-qanun və tərbiyə əsas amillərdəndir.

Süleymanova Salatın Tərlan qızı 16 noyabr Bakı şəhərində dünyaya göz açmışdır. Salatın 2012-ci ildə Laçın rayonu 29 nömrəli tam orta məktəbin 1-ci sinifində elm həyatına başlamışdır. O, hal-hazırda elə həmin məktəbin 8-ci sinif şagirdidir. Salatın çox məsuliyyətli və qabaqcıl şagirdlərdən biridir. Onun ən çox sevdiyi fənn Fizika, Riyaziyyat fənnidir. Məktəbə gəldiyi ilk gündən müəllimlərin rəğbətini qazanmağı bacarmışdır. Ən çox sevdiyi müəllimə isə Pərvin müəllimə və Samirə müəllimədir. Salatın tədris ilində keçirilən fənnlərdən fəal iştirak etdiyi üçün bir çox diplom qazanmışdır. Onun arzusu gələcəkdə savadlı müəllimə olmaqdır. Ailəsi 5 nəfərdən ibarətdir.

Atası Süleymanov Tərlan Süleyman oğlu bərbərdir.

Anası Süleymanova Samirə Tapdıq qızı evdar xanımdır.

Bacısı Süleymanova Məryəm Tərlan qızı

Qardaşı Süleymanov Barış Tərlan oğlu.

Biz də öz jurnalımız adından Salatına bol-bol uğurlar arzu edirik. Səsin daima ucalardan gəlsin!






2013-cü ildən nəşr olunan Təhsil Yenilikləri qəzeti və eyni adda xüsusi buraxılış jurnalı əsasən dövlət və dövlətçiliyi təbliğ edir. Öz saylarında daha çox təhsil, təhsildəki yeniliklər haqqında məlumat verir.

Xüsusi buraxılış olan jurnalda istənilən şəxslər öz yazılar ilə çıxış edə bilər. Belə ki, qabaqcıl ziyalılar, müəllimlər, həkimlər, tələbələr, şagirdlər və qeyri-ixtisasın sahibləri öz yazılarını jurnalda çap etdirə bilərlər. Eləcə də 500-dən yuxarı bal toplayan məzunlar, əlaçılar, idmançılar, maraqlı əl işləri olan gənclər, səs qabiliyyəti olan və şeir yazmaq və demək qabiliyyəti olan şagirdlər də jurnala müraciət edə bilərlər.

Onu da qeyd edək ki, jurnal şəhid övladlarına, fiziki əqli cəhətdən zəif olan şagirdlərə, o cümlədən hər iki valideynini itirən şagirdlərə pulsuzdur.

Əziz oxucular! Əgər sizlər də jurnalda məqalə, elan, təbrik və reklam vermək istəyirsinizsə aşağıdakı telefonlarla əlaqə saxlaya bilərsiniz:
Telefon nömrələri:
(070) 077 988 82 83 077 632 22 86 WhatsApp 012 408 91 92

Mail: tehsil_news@mail.ru
Facebook: Tehsil Yenilikleri İnstagram: tehsil_yenilikleri Youtube: Təhsil Yenilikləri

ÇAĞDAŞ TƏHSİL
Xüsusi buraxılış Yanvar 2019-cu il (09)








# EUROHOME

***Müasir dam örtükləri***

Hər növ polimer örtükləri, yeni dam örtüklərinin sifarişi

**ruukki**

**İtalya, Koreya, Çin, Türkiyyə, Ukrayna və bütün dövlətlərin mallarının satışı.**
**Burada hər növ dam örtükləri topdan və pərakəndə satışı olur.**






---

**Ünvan: Xırdalan şossesi, Ekologiya postu ilə üzbəüz**
**EVROHOME mağaza N103**
**Dükanıbn sahibi: Seymur Orucov**
**Tel: (+994 51) 600-02-07**

Təsisçi:
Vüsal Kəlbəcərli

Redaksiya heyyəti:
Cavid Qurbanov
Qənbər Qurbanov

"Çağdaş Təhsil"
qəzetinin
Xüsusi buraxılış

Ünvan: Azərbaycan
Respublikası
Bakı şəhəri, Mətbuat
prospekti
529-cu məhəllə
"Azərbaycan nəşriyyatı"
2-ci mərtəbə

Jurnal Redaksiyanın
kompüter mərkəzində
yığılıb, səhifələnib,
çap olunmuşdur.

Tiraj - 500

Tel: 012-408-91-92
077-632-22-86
050-877-71-86
070-352-22-07